**Bakı Dövlət Universitetinin Kimya fakültəsinin magistratura səviyyəsi üzrə 6 (Analitik kimya, Yüksəkmolekullu birləşmələr kimyası, Qeyri üzvi kimya, Neft kimyası, Üzvi kimya, Fiziki kimya) ixtisaslaşmasının beynəlxalq akreditasiyası zamanı təqdim olunmuş irad və tövsiyələrin icrasına dair**

# HESABAT

1. Kimya fakültəsi təhsil proqramlarına tələbəmərkəzli təhsil prosesini tətbiq edir. Təhsil proqramlarını həyata keçirən zaman əsas iştirakçılar təhsilalanlar olduqları üçün təhsil prosesinin keyiyyətinin təmin edilməsi zamanı ilk növbədə onların maraqları nəzərə alınır. Təhsil prosesini birgə aparmaq üçün fakültə təhsilalanların aktiv rolunu stimullaşdırır. Təhsilin nəticələrinin qiymətləndirilməsi tələbəmərkəzli təhsil yanaşmasını əks etdirir. Fakültə müxtəlif qrup tələbələrə və onların tələbatlarına hörmət və diqqətlə yanaşmaqla, onlara çevik təhsil trayektoriyası təqdim edir. Lazımi biliklərin və kompetensiyaların sərbəst əldə edilməsi üçün müxtəlif pedaqoji metod və təhsil formalarından istifadə edərək təhsilalanların aktivliyini təmin etməklə, biliyin müəllim tərəfindən hazır şəkildə ötürülməsi praktikasından imtina edir. Bunun üçün təhsil proqramlarının və sillabusların yenilənməsi prosesi aparılıb və davam etdirilir. Bu yenilənmələr müəllimlər tərəfindən həyata keçirilir.
2. Kimya fakültəsini müxtəlif illərdə bitirmiş məzunlarla əlaqə saxlamaq, onların karyera fəaliyyətini izləmək üçün fakültənin Web Saytında “ Məzun Bazası” yaradılmışdır.
3. Xarici universitetlərə tələbə mobilliyinin gücləndirilməsi məqsədilə kafedrada magistratura səviyyəsində ikili diplom siyasəti həyata keçirilməsi daim diqqət mərkəzindədir.
4. Analitik kimya kafedrası məzunların karyera yüksəlişinə nəzarəti fakültənin Web Saytında “ Məzun Bazası” üzərindən aparır. Saytın fəaliyyəti tam formalaşdıqdan sonra bu sahədə effektivlik müşahidə olunacaq. Prosesin 2026-cı ilə qədər tamamlanması nəzərdə tutulub.

5. Kafedrada əcnəbi alim-mühazirəçilərin tədris prosesinə cəlb edilməsi istiqamətində işlər BDU-nun strateji inkişaf planı əsasında aparılır. 2026-cı ilə qədər tamamlanması nəzərdə tutulub.
6. Həm ölkə daxilində, həm də xaricdə təhsil proqramları çərçivəsində tələbələrin akademik mobilliyi kafedra tərəfindən daim gündəmdə olan məsələdir. Həm bakalavr həm də magistratura mərhələsində Fiziki tədqiqat üsulları fənni tədris olunur. Bu da tədris proqramı əsasında tələbələrin müasir analitik cihazlarda işləməsi və tanışlığına şərait yaradır.
7. Univeristetdə aparılan əsaslı təmir işləri 2026-cı ilə qədər Wi-Fi sayının artırılmasına kömək edəcək.
8. Kafedrada əcnəbi alim-mühazirəçilərin tədris prosesinə cəlb edilməsi istiqamətində işlər BDU-nun strateji planı əsasında aparılır. 2026-cı ilə qədər tamamlanması nəzərdə tutulub.
9. BDU-nun strateji planına uyğun olaraq 2-li diplom siyasətinə üstünük verilir. Eyni zamanda bu istiqamətdə müxtəlif əməkdaşlıq müqavilələri həyata keçirilir. 2022-ci il ərzində xarici univeristetlərlə əməkdaşlıq çərçivəsində üç əməkdaşlıq müqviləsi imzalanmışdır:

- BDU ilə Lissabon Universitetinin “Superior Tecnico” İnstitutu ilə Elmi əməkdaşlıq müqaviləsi;
- BDU ilə Mirzə Uluqbəy adına Özbəkistan Milli Universiteti arasında anlaşma memorandumu;
- BDU ilə Abdulla Qədiri adına Cizak Dövlət Pedaqoji Universiteti arasında əməkdaşlıq müqaviləsi.

10. Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün anonim sorğular həyata keçirilir. Bu prosesin sadələşdirilməsi və optimallaşdırılması üçün yeni yaradılan web-saytda proqram təminatı nəzərdə tutulub.
11. Magistr tələbələrin beynəlxalq səviyyədə tədqiqata cəlb edilməsi və elmi nəticələrinin tanınması istiqamətində işlər gedir.

12. Hal-hazırda universitetdə tələbələrin şəxsi səhifəsinə çıxışını təmin etmək və tələbələrin irəliləyişlərinin operativ təhlili üçün elektron məlumat sistemi yaradılması həyata keçirilir və 2026-cı ilə qədər bu proses yekunlaşacaq.

13. Universitetin kadr siyasəti olaraq ingilis dilini mükəmməl bilən gənclərin işə götürülməsi mütəmadi olaraq həyata keçirilir. Kafedrada bu istiqamətdə müsbət addımlar atılıb.

14. Tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə kafedrada magistrantların həftəlik elmi seminarları təşkil olunur.

15. BDU-da fəaliyyət göstərən **Keyfiyyətin təminatı, monitorinq şöbəsi** tərəfindən təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri daim monitorinq olunur. BDU-da tədris prosesinin keyfiyyətinə nəzarətin gücləndirilməsi məqsədilə bütün auditoriyalarda (mühazirə və laboratoriya) veb-kameralar quraşdırılıb və tədris prosesinə fakültə dekanı ilə birlikdə Tədris prosesinin təşkili və idarə edilməsi Mərkəzinin əməkdaşları tərəfindən nəzarət olunur. Bundan başqa keyfiyyətə nəzarət və monitorinq məqsədilə təcrübəli müəllimlərdən ibarət kollegial qrup kafedrada açıq dərslərin keçirilməsi, eləcə də dərslərin müzakirəsini həyata keçirir.

16. Beynəlxalqlaşmanı genişləndirmək məqsədilə Bakı Dövlət Universiteti (BDU) və Satbayev adına Qazax milli Tədqiqat Texniki Universiteti (QMTTU) arasında 2021-ci il tarixli müqaviləyə əsasən BDU-nun Kimya fakültəsi və QMTTU-nun Kimya və Biotexnologiyalar İnstitutunun magistratura proqramı bazasında Neft Kimyası ixtisaslaşması üzrə magistratura səviyyəsində birgə ikili diplom proqramı tədris olunub. Bu proqram çərçivəsində neft kimyası və kimya mühəndisliyi elmləri üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlığı aparılır.

17. Kimya fakültəsi ölkəmizdə yüksək ixtisaslı kimyaçı kadrlar hazırlayan əsas elm mərkəz olaraq Azərbaycan Respublikasinin Elm və Təhsil nazirliyinin akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu, akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu, Polimer Materiallar İnstitutu, Radiasiya Problemləri İnstitutu, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,

Azərbaycan Dövlət Neft Şirkətinin Heydər Əliyev adına Neft emalı zavodu, Qaz emalı zavodu, Ekologiya idarəsi, Azərkimya və Azneft istehsalat birlikləri, Bakı şəhərində fəaliyyət göstərən orta təhsil müəssisələrinin rəhbər şəxsləri ilə proqramın hazırlanmasında əməkdaşlıq edir. Təhsil prosesinin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində yeni internet saytda müvafiq proqramların işlənilməsi nəzərdə tutulub.

18. Bu istiqamətdə kompleks tədbirlər həyata keçirilir və plannaşdırılır. 2026-cı ilə qədər effektiv nəticələrin olması gözlənilir.

19. Mövcud maddi texniki bazanın saxlanılması və yeni cihaz, reaktiv alınması istiqamətində aparılan işlər elmi tədqiqatın güclənməsinə şərait yaradır.

20. İşəgötürənlərlə əlaqələrin gücləndirilməsi istiqamətində aparılan kompleks tədbirlər daha da gücləndirilir.

21. Gələcək kadr potensialını gücləndirmək məqsədi ilə saathesabı qaydada doktorantlar və digər gənc kadrlar tədrisə cəlb olunurlar. Akademik heyətin tədqiqat maraqları və layihələrinin siyahısını (ingilis dilində) yenı saytda nəzərə alınıb.

22. Hal-hazırda Bakı Dövlət Universitetində müasir tələblərə uyğun ingilis dili kursları fəaliyyət göstərir. Tələbə və müəllim kontingenti bu kurslardan yararlanır.